

**_Kamandar EYVAZLI_**

## AZƏRBAYCAN POLİSİ

Şərəflidir keçmişi,
Uğurludur bu günü.
Sevir azad xalqını,
Müstəqil ölkəsini.

Ayıq-sayıq görürük
Hər vaxt,hər an polisi.
Dözümlüdür,bilirik,
Azərbaycan polisi.

Gecə-gündüz keşikdə,
Dövlətini qoruyur.
Lap ilk gündən,beşikdən,
Millətini qoruyur.

Sədaqəti danılmaz-
Dayağına bağlıdır.
Məhəbbəti azalmaz-
Bayrağına bağlıdır.

Dosta mehriban olub,
Yada sinə gəribdir.
Qarabağın uğrunda
Neçə şəhid veribdir.

Həsr edibdi ömrünü
Çox müqəddəs bir işə.
Komandanın əmrinə
Müntəzirdi həmişə.

Girsə əgər savaşa
Əsirgəməz canını.
Generaldan çavuşa
Ali tutur qanunu.

Ümidlidir sabaha,
Getdiyi yol doğrudur.
Azərbaycan polisi
Bu Torpağın övladı,
Bu Vətənin oğludur!

## YAXŞILIQ

**Dostum Şahin Rüstəmova**

Elə bir vaxtımda qolumdan tutdun-
Yıxıla bilərdim,bir az geciksən.
Elə bir vaxtımda dadıma çatdın-
Boğula bilərdim,bir az geciksən.

Qaldırdın ayağa yerdə qalanı,
Dayanıb durmağı bacardım onda.
Dəryada batanı,odda yananı,
Əl verib qurtaran sən oldun onda.

Nə dünya səbəbdi,nə də ki,zaman
Nadanın xəncəri kəsdi əlimi.
Qayğılar... son günlər çoxalıb yaman
Çökmüşdü üstümə dumanlar kimi.

Yıxılıb qayadan,düşüb yarğandan,
Sağımı itirib,solu gəzirdim.
Məni bu dərədən düzə çıxaran
Cığırı axtarıb,yolu gəzirdim.

Başıma dar idi geniş kainat,
Göy göydən,yer yerdən sıxırdı məni.
Hər şey yaxşı idi... bu zalım həyat
Sınadı gör necə həyatda məni.

Donmuşdu dilimdə sonuncu sözüm,
Min fikir qəlbimi didib yeyirdi.
Bir uzaq ölkədə tələbə qızım
Hər gün atasından pay gözləyirdi.

Yetişib dadıma bax belə vaxtı
-Qardaş deyilikmi?
Dedin ürəkdən
Elə bil üzümə Allahım baxdı
Yenidən səninlə görüşəndə mən.

Kim bilir,a qardaş,kimin dərdini,
Bu yaşda çox şeyi anlayıb-bildim.
Dostun yaxşısını,elin mərdini,
Mən sənin simanda,şəxsində gördüm.

Bir çətin anımda tutub əlimdəm,
Şirin söhbətlər də söylədin mənə.
Bizim son görüşdə özün bilmədin
Sən hansı yaxşılıq eylədin mənə.

Ədalət.- 2020.- 6 fevral.S. 7.